*Muhəmməd ibn Saleh əl-Useymin*

# Qadınlarla əlaqəli 60 sual

**Tərcümə: Turab Abdullayev**

Müəllif: Muhəmməd ibn Saleh əl-Useymin
Tərcümə: Turab Abdullayev
İxtisas redaktoru: M. Qarayev
Redaktor: X. Rəfili

*Hörmətli oxucu! Bu tərcümə insan əməyinin bəhrəsidir. Demək burada xətaların olmaması mümkün deyil. Hər hansı bir dəyərli fikir və ya mülahizənizi aşağıdakı elektron ünvanına göndərə bilərsəniz.*

Turababd@box.az

Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə nəşr edilmişdir.
(?????????????????????)

## Bismilləhir-rahmənir-rahim.

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyir, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə, o, doğru yolda olar, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"**[1]

**"Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın** ***törədib yer üzünə*** **yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən** ***cür-bəcür şeylər*** **istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir".**[2]

---

[1] "Ali-İmran" surəsi, 102.

[2] "ən-Nisa" surəsi, 1.

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar".**[1]

Müsəlman bacım!

İbadətlər zamanı heyz və nifasın hökmləri ilə əlaqəli alimlərə verilən çoxsaylı sualları nəzərə alaraq, tez-tez qarşıya çıxan və daima təkrarlanan sualları qısa və müxtəsər olaraq cavablandırmağı qərara aldıq.

Müsəlman bacım!

Uca Allahın dinində fiqhin əhəmiyyətli olduğundan və Allah Təalaya elm və bəsirətlə ibadət edəsən deyə bu kitabçanı toplayıb sənin əlində olmasına çalışdıq.

**Diqqət:** Oxucu kitabçanı birinci dəfə oxuduqda bəzi suallarda oxşarlıqlarla qarşılaşacaq, lakin diqqət yetirdikdə hər bir sualın cavabında əlavə daha bir faydanın olduğunu görəcək.

Uca və Əzəmətli Allahdan bu kitabçanın faydalı olmasını və hər bir əməlimizin Allah Təalanın yolunda xalis olmasını diləyirik! Amin!

---

[1] "əl-Əhzab" surəsi, 70-71.

# Heyz və nifasın namaz və orucla əlaqəli bəzi hökmləri

**Sual 1:** Əgər qadın fəcrdən[1] dərhal sonra heyzdən təmizlənərsə, həmin gün oruc tutmalıdırmı və orucu düzgün sayılırmı, yoxsa həmin günün qəzasını sonradan tutmalıdır?

**Cavab:** Bu məsələdə alimlərin iki rəyi vardır.

Birinci rəy: Qadın həmin gün oruc tutmalı, lakin bu oruc kamil olmadığı üçün sonradan onun qəzasını da tutmalıdır. Bu rəy imam Əhmədin Σ məzhəbində məşhur rəydir.

İkinci rəy: Qadının həmin gün oruc tutmasına gərək yoxdur. Çünki günün əvvəlində[2] heyzdən tam təmizlənmədiyinə görə o, oruc tutması vacib olan insanlardan deyildir. Ona görə də günün qalan hissəsində onun oruc tutmasının faydası yoxdur. Çünki şəriətdə orucun mənası, fəcrin girdiyi vaxtdan[3] günəşin batmasına qədər Uca Allaha ibadət niyyəti ilə yemək-içməkdən, cinsi əlaqədən və oruc tutan şəxsə qadağan olan hər bir şeydən çəkinmək deməkdir. Göründüyü kimi bu rəy birinci

---

[1] Sübh namazının girdiyi vaxtdan.
[2] Sübh girəndə.
[3] Dan yeri söküləndən.

rəydən daha düzgündür. Hər iki rəyə görə həmin günün orucunun qəzasını sonradan tutmaq lazımdır.

**Sual 2:** Əgər qadın fəcrdən əvvəl heyzdən qurtararsa, namazın vaxtı girdikdən sonra qüsl alıb namaz qılar və oruc tutarsa, həmin günün orucunun qəzasını sonradan tutmalıdırmı?

**Cavab:** Əgər qadın sübh namazı girməzdən bir dəqiqə əvvəl belə heyzdən qurtararsa – bir şərtlə ki, tam qurtarmasından əmin olsun – və bu hal Ramazan ayında baş verərsə, ona həmin gün oruc tutmaq vacibdir, bu oruc düzgündür və sonradan qəza etməsinə gərək yoxdur. Çünki qadın oruc tutan vaxt artıq heyzdən qurtarmış sayılır (qüsl almasa belə). Necə ki, gecədən üzərinə cənabət qüslü vacib olan şəxs qüslsüz halda oruc tutarsa və namazın vaxtı girdikdən sonra qüsl alarsa, orucu düzgün sayılır. Burada başqa bir məsələyə də toxunmaq istərdim. Bəzi qadınlar elə düşünürlər ki, iftardan sonra, işa namazından əvvəl heyz olarsa, həmin günün orucu düzgün sayılmır. Lakin bu belə deyildir. Əgər qadın günəşin batmasından bir an keçdikdən sonra heyz olarsa həmin günün orucu düzgün sayılır.

**Sual 3:** Əgər qadın qırx gündən tez nifasdan qurtararsa, namaz qılıb oruc tutması vacibdirmi?

**Cavab:** Bəli, qadın nə zaman nifasdan qurtararsa (qırx gündən tez olsa belə), namaz qılması və Ramazan ayındadırsa, oruc tutması vacibdir. Ərinin onunla yaxınlıq etməsi də icazəlidir.

**Sual 4:** Əgər qadının heyz müddəti adəti üzrə yeddi və ya səkkiz gün olarsa, sonra bəzi aylarda adətindən fərqli olaraq, heyz günlərinin sayı azalar və ya artarsa, qadın nə etməlidir?

**Cavab:** Əgər qadının heyz müddəti yeddi və ya səkkiz gün olarsa, sonradan bu müddət artıb doqquz, on və ya on bir günə keçərsə, qadın heyzdən qurtarmasını gözləyir və namaz qılmır. Çünki Peyğəmbər ﷺ heyzin müddətində müəyyən bir hədd təyin etməmişdir. Uca Allah buyurur: " **Səndən heyz barəsində soruşurlar. De: "Bu, əziyyətverici bir haldır. Heyz vaxtı qadınlarla *yaxınlıq etməkdən* uzaq olun və pak olmayınca onlarla yaxınlıq etməyin. Onlar təmizləndikdən sonra isə Allahın sizə buyurduğu yerdən onlara yaxınlaşın."**[1] Elə ayədən də məlum olur ki, heyzin müəyyən bir müddəti yoxdur. Lakin sonrakı aylarda heyz günlərinin sayı azalarsa (beş və ya altı günə keçərsə), qadın heyzdən qurtardığı vaxtdan qüsl alıb namaza başlayır.

---

[1] "əl-Bəqərə" surəsi, 222.

**Sual 5:** Nifaslı qadın tam qırx gün namazı və orucu tərk edib gözləməli, yoxsa qanın dayandığı vaxtdan namaz və oruca davam etməlidir? Nifasın ən az müddəti neçə gündür?

**Cavab:** Nifas günlərinin azlığında müəyyən bir müddət yoxdur. Nə qədər ki, nifas qanı davam edir, qadın namaz və orucu tərk etməlidir. Həmçinin ərinin onunla yaxınlıq etməsi də qadağandır. Qadın nifasdan qurtardıqdan sonra, – qırx gündən tez, on və ya on beş günə olsa belə – həmin vaxtdan namaz qılıb oruc tutur və ərinin onunla yaxınlıq etməsi caiz olur.

Lakin qan qırx gündən artıq davam edərsə, məsələn, altmış gün olarsa bu qan istihazə[1] hökmü daşıyır. Belə halda qadın qırx gündən sonra əlavə olaraq adəti üzrə heyz günlərinin sayı qədər gözləyir, sonra qüsl alıb ibadətinə davam edir. Bundan sonra qadından qan gələrsə, o, sadəcə hər namaz vaxtı bu qandan təmizlənib dəstəmazını təzələyir.

**Sual 6:** Əgər Ramazan ayında qadından az-az qan damcıları ifraz olarsa və bu hal Ramazanın axırına qədər davam edərsə, qadın oruc tutmalıdırmı və orucu düzgün sayılırmı?

---

[1] Bu, heyz və nifas istisna olmaqla, bəlli olmayan vaxtlarda qadının uşaqlığından gələn qandır.

**Cavab:** Bəli, qadın oruc tutmalıdır və orucu düzgündür. İfraz olan qan damcıları isə heyzdən sayılmır. Çünki o qan, damarlardan gələn qandır. Əli ibn Əbu Talibin ﷺ belə dediyi rəvayət olunur: **"Bu cür qan damcıları burun qanaxmasına bənzəyir və heyz sayılmır."**

**Sual 7:** Əgər qadın fəcrdən əvvəl heyz və ya nifasdan qurtararsa və fəcrin vaxtı girdikdən sonra qüsl alarsa, orucu düzgün sayılırmı?

**Cavab:** Bəli, əgər qadın fəcrdən əvvəl heyzdən və ya nifasdan qurtararsa və fəcrin vaxtı girdikdən sonra qüsl alarsa, orucu düzgündür. Çünki həmin vaxt qadın artıq üzərinə oruc vacib olanlardan sayılır. Bu hal gecədən üzərinə cənabət qüslü vacib olan, fəcr girdikdən sonra qüsl alanın halı ilə eynidir. Uca Allah buyurur: "**... Artıq *bu gündən* onlara yaxınlaşın və Allahın sizin üçün *əzəldən* müəyyən etdiyinə nail olmağa çalışın. Dan yeri söküləndə ağ sap qara sapdan (şəfəq gecənin qaranlığından) seçilənə qədər yeyin-için...**"[1] Ayədən məlum olur ki, oruc gecəsi yemək-içmək və öz qadını ilə yaxınlıq etmək fəcrə qədər halaldır, qüslü fəcr girdikdən sonra da alıb oruca davam etmək olar. Möminlərin anası Aişədən O rəvayət olunan hə-

---

[1] "əl-Bəqərə" surəsi, 187.

disdə deyilir ki, **"Peyğəmbər ﷺ səhər-səhər cünublu ikən yuxudan ayılar və bu halda oruc tutardı."** Yəni sübh girdikdən sonra qüsl alardı.

**Sual 8:** Əgər oruclu qadın heyz qanının gəlməsini və ya heyz ağrılarını hiss edərsə, lakin günəşin batmasına qədər qan ifraz olmazsa, həmin günün orucu düzgündürmü?

**Cavab:** Bəli, əgər qadının heyz ağrıları olarsa və ya heyz olacağını hiss edərsə, lakin günəş batana qədər qan ifraz olmazsa, onun tutduğu oruc düzgündür. Vacib orucdursa, sonradan qəza etməsi lazım deyil. Nafilə orucdursa, savabı batil sayılmır.

**Sual 9:** Əgər oruclu qadından qan ifraz olarsa, lakin o bu qanın heyz qanı olmasına əmin olmazsa, həmin günün orucu düzgündürmü?

**Cavab:** Bəli, qadının orucu düzgündür. Belə ki, qadın ifraz olan qanın heyz qanı olmasına əmin olmayınca, o qan heyzdən sayılmır.

**Sual 10:** Əgər oruclu qadın günün müxtəlif vaxtlarında çox az-az qan damcıları görərsə və bu hal bəzən adəti üzrə heyz vaxtlarında, bəzən də adi günlərdə baş verərsə, hər iki halda qadının orucunun hökmü necədir?

**Cavab:** Buna oxşar suala bir az öncə cavab verilmişdir. Lakin qeyd etmək lazımdır ki, belə bir

hal qadının adəti üzrə heyz günlərində baş verərsə, bu qan heyz qanı sayılır.

**Sual 11:** Heyzli və ya nifaslı qadının Ramazan günlərində yeyib-içməsi icazəlidirmi?

**Cavab:** Bəli, icazəlidir. Lakin yanındakı oruclu adamlara əziyyət verməmək üçün gizlində yeməsi daha yaxşıdır.

**Sual 12:** Əgər qadın heyz və ya nifasdan əsr namazının vaxtında qurtararsa, əsr namazı ilə birlikdə zöhr namazını da qılmalıdırmı?

**Cavab:** Bu məsələdə daha düzgün rəy odur ki, qadın yalnız əsr namazını qılmalıdır və zöhr namazının qılınmasının vacibliyinə dəlil yoxdur. Peyğəmbər ﷺ demişdir: "**Kim günəş batmazdan əvvəl əsr namazının bir rükətinə yetişərsə, artıq əsrə yetişmiş olar.**"[1] Burada zöhr namazına yetişmək zikr olunmur. Əgər lazım olsaydı, Peyğəmbər ﷺ bunu bəyan edərdi. Necə ki, qadının heyzi zöhr namazının vaxtı girdikdən sonra başlayarsa, təmizləndikdən sonra yalnız zöhr namazının qəzasını qılmalıdır. Həmçinin işa namazının vaxtı çıxmazdan əvvəl heyzdən qurtararsa, onun məğrib namazını qılmasına gərək yoxdur, yalnız işa namazını qılmalıdır. Buna əsasən demək olar ki,

---

[1] əl-Buxari, 579.

düzgün rəy, yalnız əsr namazının qılınması vacib olan rəydir.

**Sual 13:** Əgər qadının uşağı düşərsə və bu hal uşağın (yəni rüşeymin) ana bətnində insan şəklində formalaşmasından sonra baş verərsə, qadının oruc tutmasının hökmü necədir?

**Cavab:** Əgər rüşeym ana bətnində tam formalaşmazdan əvvəl düşərsə (elm əhli deyir ki, formalaşmanın ən az müddəti 81 gündür) ondan ifraz olan qan nifas qanı deyildir, buna görə də qadın namazına davam etməlidir və oruc tutması da düzgündür. Lakin bu hal rüşeymin insan şəklində formalaşmasından sonra baş verərsə, ifraz olan qan nifas hökmü daşıyır və nifasdan qurtarana qədər namaz qılmaq və oruc tutmaq qadağan sayılır.

**Sual 14:** Ramazan günlərində hamilə qadından ifraz olan qan onun orucuna təsir göstərirmi?

**Cavab:** Əgər qadından oruc zamanı heyz qanı gələrsə, onun orucu pozulur. Peyğəmbər ﷺ demişdir: **"Məgər (qadın) heyz olduğu zaman namazını və orucunu tərk etmirmi?"**[1] Bu hədisə əsasən heyz və nifas orucu pozan amillərdən sayılır. Hamilə qadından Ramazan günlərində heyz qanı ifraz olarsa, bu, onun orucunu pozur. Çünki hamilə qadından

[1] əl-Buxari, 304.

gələn qanın hökmü, hamilə olmayan qadından gələn heyz qanının hökmü ilə eynidir. Əgər ifraz olan qan heyz qanı olmazsa, bu orucu pozmur. Hamilə qadından gələn qanın heyz qanı olub-olmadığını bilmək üçün baxmaq lazımdır ki, qadın uşağa qaldıqdan sonra ondan gələn qan əvvəlki aylarda adəti üzrə gələn qanın vaxtı ilə eyni vaxta düşərsə bu, heyz qanı sayılır. Lakin uşağa qalandan sonra hamiləlik dövründə müxtəlif vaxtlarda heyz qanından fərqli olan qan ifraz olarsa, bu heyz qanı sayılmır və qadının orucuna heç bir təsir göstərmir.

**Sual 15:** Əgər qadından adəti üzrə heyz vaxtı bir gün qan ifraz olarsa və sonrakı gün qan ifrazı tamamilə dayanarsa, qadın nə etməlidir?

**Cavab:** Görünür ki, bu hal (yəni qan ifrazının müvəqqəti dayanması) tam təmizlənmək sayılmır və qadın heyz halında olaraq qalır. Bəzi elm əhli isə deyir ki, qadından bir gün qan ifraz olarsa və sonrakı gün dayanarsa, qan ifraz olduğu gün namazı tərk edir, qan ifraz olmadığı gün isə qüsl alıb namazını qılır. Bu hal on beş gündən artıq davam edərsə, qan istihazə hökmü daşıyır. Belə halda qadın ifraz olan qandan təmizlənib hər namaz üçün ayrıca dəstəmaz almalıdır. Bu rəy imam Əhmədin Σ məzhəbində məşhur rəydir.

**Sual 16:** Heyzin son günlərində qadından qan ifrazı dayanarsa, lakin əksər qadınlarda heyzin qurtarma əlaməti olan ağ rəngli maye ifraz olmazsa, qadın namaz qılıb oruc tutmalı, yoxsa heyzin qurtarma əlaməti olan ağ rəngli mayenin ifraz olmasını gözləməlidir?

**Cavab:** Əgər qadından heyzin sonunda heç zaman ağ maye ifraz olmamışsa, qan ifrazının dayandığı vaxtdan qüsl alıb ibadətinə davam etməlidir. Lakin heyzin sonunda həmişə ağ maye ifraz olmuşsa, qadın ağ mayenin ifrazını gözləməli və sonra qüsl alıb ibadətlərini yerinə yetirməlidir.

**Sual 17:** Heyzli və ya nifaslı qadına zəruri halda (məsələn, müəllimə və ya tələbədirsə) Quranı əzbərdən və ya üzündən oxumaq olarmı?

**Cavab:** Ehtiyac olan zaman heyzli və ya nifaslı qadının Quran oxuması icazəlidir. Lakin savab qazanmaq niyyəti ilə Quran oxumasına əksər alimlər icazə vermir. Buna görə də çəkinməsi daha üstündür.

**Sual 18:** Qadının paltarına heyz qanı dəyməzsə, heyzdən qurtardıqdan sonra həmin paltarı dəyişməsi lazımdırmı?

**Cavab:** Xeyr, paltarı dəyişməsi lazım deyil. Çünki heyz qanı bədəni yox, sadəcə dəydiyi yeri

nəcasətləndirir. Buna görə də Peyğəmbər ﷺ qadınların paltarına heyz qanı dəydikdə onu yumağı və sonra o paltarda namaz qılmağı əmr edərdi.

**Sual 19:** Qadın Ramazan ayında nifas olduğuna görə yeddi gün oruc tutmayıb. Sonrakı ilin Ramazan ayına qədər xəstə olduğu üçün həmin o yeddi günün qəzasını tuta bilməyib. Artıq üçüncü Ramazan yaxınlaşır. Qadın nə etməlidir?

**Cavab:** Əgər qadın orucun qəzasını həqiqətən xəstəliyi üzündən tuta bilməyibsə, ona günah yoxdur, nə zaman bacarsa, onda da qəzasını tutmalıdır. Lakin üzrsüz səbəbdən qəza orucunu ikinci Ramazana qədər gecikdirməsi düzgün deyil. Aişə O demişdir: **"Mənim Ramazanda qəza orucum olardı və mən onu ancaq Şaban ayında (yəni sonrakı ilin Ramazanına bir ay qalmış) tutmağı bacarardım."**[1] Bu hədisə əsasən qadın qəza orucunu üzrsüz olaraq tutmayıbsa, günah daşıyır. Həmin qadın tezliklə Allaha tövbə etməli və yaxın bir zamanda qəza orucunu tutmalıdır. Lakin üzrlü səbəbdən qəzanı nə qədər gecikdirsə, günah qazanmır.

**Sual 20:** Bəzi qadınlar ötən ilin Ramazan ayından olan qəza orucunu tutmayıblar. Hazırda növbəti Ramazan ayı başlayır. Onlar nə etməlidir?

---

[1] əl-Buxari, 1950.

**Cavab:** Həmin qadınlar tezliklə tövbə etməlidirlər. Çünki üzrsüz səbəbdən ötən Ramazan ayının qəzasını gələn ilin Ramazan ayına qədər gecikdirmək olmaz. Aişə O demişdir: **"Mənim Ramazanda qəza orucum olardı və mən onu ancaq Şaban ayında (yəni sonrakı ilin Ramazanına bir ay qalmış) tutmağı bacarardım."**[1] Bu dəlildir ki, qəzanı növbəti Ramazandan sonraya saxlamaq olmaz. Odur ki, o qadınlar tezliklə tövbə etsinlər və Ramazan bitən kimi ötən ilin qəza orucunu tutsunlar.

**Sual 21:** Əgər qadın zöhr namazının vaxtı girdikdən sonra, namazı qılmadan öncə heyz olarsa, təmizləndikdən sonra o namazın qəzasını qılmalıdırmı?

**Cavab:** Bu məsələdə alimlər arasında ixtilaf var. Bəzi alimlər deyir ki, qadına heyzdən təmizləndikdən sonra həmin namazın qəzasını qılmaq lazım deyildir. Çünki o səhlənkarlıq etməyib və zöhr namazının vaxtı uzun olduğuna görə onu vaxtı girən kimi qılmayıb. Bəzi alimlər isə qəzanın qılınmasını Peyğəmbərin ﷺ bu hədisinə görə lazım görür: **"Kim namazın bir rükətinə (vaxtı çıxmazdan əvvəl) yetişərsə, artıq həmin namaza ye-**

[1] əl-Buxari, 1950.

**tişmiş olar."**[1] Ona görə yaxşıdır ki, qadın təmizləndikdən sonra hər ehtimala görə həmin namazın qəzasını qılsın. Çünki bir namazın qəzasını qılmaq heç bir çətinlik törətmir.

**Sual 22:** Əgər hamilə qadından doğuşdan bir və ya iki gün əvvəl qan gələrsə, qadın bu səbəbdən namazı və orucu tərk etməlidirmi?

**Cavab:** Əgər qadın ondan gələn qanla bərabər doğuş sancıları da hiss edərsə, namazı və orucu tərk edir. Çünki bu qan nifas qanıdır. Lakin qadın doğuş sancıları hiss etməzsə, namazı və orucu tərk etmir. Çünki gələn qan onun ibadətinə mane olmur.

**Sual 23:** Oruc tutmaq niyyəti ilə heyzin qarşısını almaq üçün qəbul edilən həblər haqqında nə deyə bilərsiniz?

**Cavab:** Mən qadınları bundan çəkindirirəm, çünki həmin həblərin çox zərərli olması tibdə də sübut edilmişdir. Həmçinin heyz Allahın qadınlara yazdığı qədərdir və onlar bununla razılaşmalıdırlar. Belə ki, heç bir maneə olmadığında qadın oruc tutmalı, maneə yarandıqda isə Allahın yazdığı qədərdən razı qalaraq, iftar etməlidir.

---

[1] əl-Buxari, 579.

**Sual 24:** Əgər qadın nifasdan təmizləndikdən iki ay sonra az-az qan damcıları görərsə, nə etməlidir?

**Cavab:** Qadınların heyz və nifas problemləri sahilsiz dənizə bənzəyir. Bunun başlıca səbəblərindən biri heyz və ya hamiləliyin qarşısını almaq üçün istifadə edilən həblərdir. Doğrudur, qadınlar yaranan vaxtdan bu cür problemlər mövcuddur, ancaq indiki zamanda elə məsələlər qarşıya çıxır ki, insan həmin məsələlər qarşısında aciz qalır. Lakin ümumi qayda odur ki, qadın heyz və ya nifasdan təmizləndiyindən əmin olarsa (yəni, heyzin sonunda qadınlara məlum olan ağ maye ifraz olarsa), ondan sonra gələn sarı və ya bulanıq maye, yaxud tər onun ibadətinə heç bir maneə törətmir. Bu, qadının namaz qılıb oruc tutmasının qarşısını almır. Ummu Ətiyyə O belə rəvayət etmişdir: **"Biz (heyzdən sonra gördüyümüz) sarı rəngli və ya bulanıq mayeni heyzdən hesab etməzdik."**[1] Bu hədisə əsasən, qadın təmizləndiyindən əmin olarsa, ondan sonrakı ifrazat heç bir maneə törətmir, qadın namazını qılıb orucunu tutmalıdır. Ərinin onunla yaxınlıq etməsi də icazəlidir.

---

[1] əl-Buxari, 326.

Lakin qadın gərək tələsməsin. Çünki bəzi qadınlar qan dayanan kimi tam təmizlənməsindən əmin olmamış qüsl alıb namaza başlayır. Səhabə qadınlar heyzdən qurtarmalarından əmin olmaq üçün möminlərin anası Aişədən O soruşduqda, o onlara ağ mayeni görənə qədər tələsməməyi tövsiyə edərdi.

**Sual 25:** Bəzi qadınlarda qan ifrazı arada bir-iki gün dayanır, sonra yenidən davam edir. Bu halda qadın namaz və oruc kimi ibadətləri necə etməlidir?

**Cavab:** Çox alimlərin fikrinə görə, qadın adəti üzrə heyzi qurtaran vaxtdan qüsl alıb ibadətinə davam edir. Ondan iki və ya üç gün sonra ifraz olan qan isə heyz qanı sayılmır. Çünki, alimlərin fikrinə görə, qadının ən az təmizlik müddəti (yəni iki heyz arasında olan müddət) on üç gündür. Bəzi elm əhli isə deyir ki, qadından qan gəldikdə, heyz halında hesab olunur, qan dayandıqda isə təmizlik halında hesab olunur.

**Sual 26:** Ramazan gecələrində qadının məsciddə namaz qılması əfzəldir, yoxsa evində? Xüsusən, məsciddə dini mövzular danışılarsa? Məsciddə namaz qılan qadınlara tövsiyəniz nədir?

**Cavab:** Peyğəmbərin ﷺ hədisində qadınlara xitab olaraq belə deyilir: "**Evləri onlar üçün daha**

**xeyirlidir**"[1] Bu hədisə əsasən deyə bilərik ki, qadının evdə namaz qılması məsciddə qılmasından daha xeyirlidir. Həmçinin qadının bayıra çıxması çox vaxt fitnələrə səbəb olur. Elə buna görə də yaxşıdır ki, qadın namazları evində qılsın və məsciddə olan dərslərə kaset vasitəsilə qulaq assın. Məsciddə namaz qılan qadınlara tövsiyəmiz odur ki, evlərindən çıxdıqda tam örtünsünlər, açıq-saçıq, bərbəzəkli geyimlərdən və ətirlənməkdən tamamilə uzaq olsunlar.

**Sual 27:** Qadının Ramazan ayında oruclu ikən yeməyin dadına baxmasının hökmü nədir?

**Cavab:** Oruclu qadın, əgər ehtiyac olarsa, yeməyin dadına baxa bilər, lakin daddığını udmamalıdır.

**Sual 28:** Qadın hamiləliyin əvvəlində avtomobil qəzası nəticəsində güclü qanaxmadan uşaq salarsa, orucunu aça bilərmi, yoxsa orucuna davam etməlidir? Əgər orucunu açarsa, günah qazanırmı?

**Cavab:** İmam Əhmədin Σ dediyi kimi deyə bilərik ki, hamilə qadın heyz olmur. Qadının hamilə olması heyzin kəsilməsi ilə bilinir. Elm əhli dediyinə görə, Uca Allahın hikmətindəndir ki, O heyzi ana bətnində rüşeymə qida olaraq yaratmış-

---

[1] Əbu Davud, 567.

dır. Lakin ola bilər ki, bəzi qadınlar hamiləlik dövründə adəti üzrə, hamiləlikdən əvvəl olduğu kimi heyz olsun. Belə olduqda qadın heyz vaxtı qadağan olan şeylərdən uzaq olmalıdır. Ümumiyyətlə, hamilə qadından ifraz olan qan iki növ olur.

Birinci növ qan heyz hökmü daşıyır. Belə ki, əgər qadın hamilə olduqdan sonra adəti üzrə hər ay heyzi davam edərsə, bu, onun orucunu pozur və bu müddətdə namaz qılması da qadağan olur. Çünki hamilə qadının heyzi hamilə olmayan qadının heyzi ilə eyni hökmü daşıyır. Lakin qadın hamilə olduqdan sonra hər ay adəti üzrə heyz olmazsa və sonradan hamiləlik dövründə müxtəlif vaxtlarda heyz qanından fərqli olan qan ifraz olarsa, bu qan heyz qanı yox, damarlardan gələn qan sayılır və qadının orucuna heç bir təsir göstərmir.

İkinci növ qan isə hər hansı bir hadisə (yıxılmaq, ağır şey qaldırmaq və s.) nəticəsində ifraz olan qandır ki, bu da heyz qanı sayılmır. Buna görə də bu qan qadının oruc tutmasına və namaz qılmasına mane olmur. Lakin qadın baş verən hadisələrdən hər hansı biri nəticəsində uşaq salarsa və bu hal rüşeymin insan şəklində formalaşmasından sonra baş verərsə, ifraz olan qan nifas hökmü daşıyır və nifasdan qurtarana qədər namaz qılmaq

və oruc tutmaq qadağan olur. Ancaq bu hal rüşeymin ana bətnində tam formalaşmasından əvvəl baş verərsə – elm əhli deyir ki, formalaşmanın ən az müddəti 81 gündür – ondan sonra ifraz olan qan nifas qanı sayılmır. Buna görə də qadın namazına davam etməlidir və oruc tutması da düzgündür.

**Sual 29:** Bir qadın soruşur ki, bir il öncə hamiləliyinin üçüncü ayında uşaq salmış və təmizlənənə qədər namaz qılmamış, sonra eşitmiş ki, namazı tərk etməsi düzgün olmayıb və namazı tərk etdiyi günlərin sayını da dəqiq bilmir. İndi o nə etməlidir?

**Cavab:** Elm əhlinin dediyinə görə, əgər qadın üç aylıq uşaq salarsa, namazı və orucu tərk edir. Çünki əvvəlki cavablarda deyildiyi kimi, əgər rüşeym artıq formalaşıbsa ondan sonra gələn qan nifas qanı sayıldığı üçün namaz qılmaq və oruc tutmaq qadağan olur. Lakin qadın 81 gündən əvvəl uşaq salarsa, ifraz olan qan nifas yox, xəstəlik qanı hökmü daşıyır və bu qan qadının namaz qılmasına və oruc tutmasına mane olmur.

Beləliklə, qadın uşaq saldığı vaxtı dəqiqləşdirməli və əgər səksən bir gündən tez uşaq salıbsa, tərk etdiyi namazların qəzasını qılmalıdır. Tərk etdiyi namazların sayını bilmirsə, təxmini olaraq ən çox sayı götürməlidir.

**Sual 30:** Bir qadın soruşur ki, üzərinə oruc vacib olandan (həddi-buluğa çatandan) bəri hər il Ramazan oruclarını tutmuş, lakin heyz olduğuna görə oruc tutmadığı günlərin qəzasını sonradan tutmamışdır. Qəza etdiyi günlərin sayını da bilmir. Belə halda qadın nə etməlidir?

**Cavab:** Mömin qadınlar arasında belə halların olması bizi təəssüfləndirir. Belə hallar ya elmsizlik, ya da səhlənkarlıq üzündən baş verir ki, bunların da hər ikisi acınacaqlı haldır. Elmsizliyin çarəsi oxuyub-öyrənmək, səhlənkarlığın çarəsi isə Uca Allahdan lazımınca qorxmaq, hər bir əməlimizə Onun nəzarət etdiyini bilmək və Onu razı salan əməllərə can atmaqdır. Buna görə qadın etdiyi əməldən tezliklə tövbə edib, Uca Allahdan bağışlanma diləməli və qəzasını tutmadığı oruclarının sayını yada salıb əvəzini tutmalıdır. Bununla da qadının üzərindən günah qalxmış olar. Ümid edirik ki, Uca Allah onun tövbəsini qəbul edər.

**Sual 31:** Əgər qadın namazın vaxtı girdikdən sonra heyz olarsa, təmizləndikdən sonra həmin namazın qəzasını qılmalıdırmı? Həmçinin əgər qadın namazın vaxtı çıxmazdan əvvəl heyzdən təmizlənərsə, həmin namazı qılması vacibdirmi?

**Cavab:** Birincisi: Əgər qadın namazın vaxtı girdikdən sonra heyz olarsa təmizləndikdən sonra

həmin namazın qəzasını qılmalıdır. Çünki Peyğəmbər ﷺ demişdir: **"Kim namazın bir rükətinə (vaxtı çıxmazdan əvvəl) yetişərsə, artıq həmin namaza yetişmiş olar."**[1] Ona görə də qadın namazın vaxtının çıxmasına bir rükətlik vaxt qalmış heyz olarsa, lakin o vaxta qədər həmin namazı qılmamışdırsa, təmizləndikdən sonra onun qəzasını qılmalıdır.

İkincisi: Əgər qadın namazın vaxtı çıxmazdan əvvəl heyzdən qurtararsa, təmizləndikdən sonra həmin namazın qəzasını qılmalıdır. Həmçinin günəşin çıxmasına bir rükətlik vaxt qaldığı halda heyzdən qurtararsa, fəcr namazını, günəşin batmasına bir rükətlik vaxt qalmış heyzdən qurtararsa, əsr namazını və gecənin yarısının tamam olmasına bir rükətlik vaxt qalmış heyzdən qurtararsa, işa namazının qəzasını qılmalıdır. Lakin qadın gecənin yarısı keçdikdən sonra heyzdən qurtararsa, təmizləndikdən sonra işa namazının qəzasını yox, fəcr namazının vaxtı girdikdən sonra yalnız fəcr namazını qılmalıdır. Uca Allah buyurur: **"Təhlükə sizdən sovuşduqda isə, namazı *lazımi qaydada* qılın. Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir."**[2]

---

[1] əl-Buxari, 579.
[2] "əl-Nisa" surəsi, 103.

**Sual 32:** Əgər qadın namaz əsnasında heyz olarsa, nə etməlidir və heyz müddətində tərk etdiyi namazların qəzasını qılmalıdırmı?

**Cavab:** Əgər qadın namazın vaxtı girdikdən sonra, (məsələn: günorta namazı girdikdən yarım saat sonra) heyz olarsa, təmizləndikdən sonra həmin namazın qəzasını qılmalıdır. Çünki namazın vaxtı girən zaman o, təmiz halda idi. Uca Allah buyurur: **"Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir."**[1]

Heyz olduğu vaxtda tərk etdiyi namazların qəzasını isə qılmır. Peyğəmbər ﷺ demişdir: **"Məgər (qadın) heyz olduğu zaman namazını və orucunu tərk etmirmi?"**[2] Həmçinin elm əhli ittifaq etmişdir ki, heyz müddətində tərk edilən namazların qəzası qılınmır. Lakin təmizləndiyi vaxtda hər hansı bir namazın vaxtının çıxmasına bir rükət namaz qılacaq qədər vaxt qalarsa, o zaman həmin namazı qılmalıdır. Məsələn: Günəşin batmasından öncə təmizləndikdə, əsr namazını; günəş çıxmazdan öncə təmizləndikdə isə, sübh namazını qüsl aldıqdan sonra qılmalıdır. Peyğəmbər ﷺ demişdir: **"Kim namazın bir rükətinə (vaxtı çıxmazdan əv-**

---

[1] "əl-Nisa" surəsi, 103.

[2] əl-Buxari, 304.

**vəl) yetişərsə, artıq həmin namaza yetişmiş olar."**[1]

**Sual 33:** Bir nəfər sual verərək deyir: "Mənim anamın altmış beş yaşı var. Artıq on doqquz ildir ki, o, dünyaya uşaq gətirmir. Hal-hazırda üç ildir ki, onun qanaxması var və bu, bir xəstəlikdir. Qarşıdan Ramazan ayı gəlir, bu halda onun necə etməsi barədə yol göstərmənizi xahiş edirik."

**Cavab:** Bu cür qanaxması olan qadın, xəstəlikdən öncəki vaxtlarda adəti üzrə heyz olduğu günlərdə namazı və orucu tərk etməlidir. Məsələn: Qadın hər ayın əvvəlində yeddi gün heyz olurdusa, xəstəlik olan müddətdə də hər ayın əvvəlində yeddi gün namazı və orucu tərk edir. Bundan sonra isə qüsl alıb, ibadətinə davam edir. Lakin hər namazın vaxtı girdikdə xüsusi yuyunub təmizlənməli və qan ifrazının qarşısını bir şeylə müvəqqəti alıb, namazını qılmalıdır. Həmçinin nafilə namaz qılmaq istədikdə də bu cür edə bilər. Belə bir halda çətinlik olduğuna görə qadın zöhr namazını əsrlə, məğrib namazını isə işa ilə birləşdirə bilər. Yəni gün ərzində beş dəfə yox, üç dəfə namaz qıla bilər. Təkrar olaraq qeyd edirəm ki, qadın hər dəfə xüsusi olaraq yuyunmalı və qan ifrazının qarşısını

[1] əl-Buxari, 579.

aldıqdan sonra dəstəmaz alıb namaz qılmalıdır. Lakin namazları qısaltmır. Zöhr namazını dörd rükət, əsr namazını dörd rükət, məğrib namazını üç rükət, işa namazını dörd rükət fəcr namazını isə iki rükət qılır. Zöhr namazı ilə əsr namazını birləşdirib istər zöhrün vaxtında, istərsə də əsrin vaxtında qıla bilər. Eləcə də məğrib namazı ilə işa namazını birləşdirib istər məğribin vaxtında, istərsə də işanın vaxtında qıla bilər. İstəsə, həmin dəstəmazla nafilə namazları da qıla bilər.

**Sual 34:** Heyzli qadının Məscidül-həramda xütbə və hədislərə qulaq asması düzgündürmü?

**Cavab:** Heyzli qadının hər hansı bir məsciddə oturması qadağandır. Lakin məsciddən keçməsi, yaxud məscidə girib oradan bir şey götürməsi icazəlidir. Muslimin rəvayət etdiyi hədisdə belə deyilir: "Bir dəfə Peyğəmbər ﷺ Aişəyə O namaz xalçasını gətirməyi əmr edir. Aişə O deyir: **"Xalça məsciddədir, mən isə heyzəm".** Peyğəmbər ﷺ deyir: **"Heyzin sənin ixtiyarında deyil."**[1]

Heyzli qadın məscidə qan düşməməsindən əmin olarsa, oradan keçə bilər. Lakin oturub qalması qadağandır. Buna dəlil Peyğəmbərin ﷺ bütün qadınlara bayram namazına çıxmağı əmr et-

[1] Muslim, 11/298.

məsidir. Lakin Peyğəmbər ﷺ heyzli qadınlara namaz qılınan yerdən uzaq olmağı əmr edir. Bu da heyzli qadının məsciddə oturub dərsə, xütbəyə qulaq asmasının qadağan olmasına dəlildir.

## Namaz zamanı təharətin bəzi hökmləri

**Sual 35:** Qadından ifraz olan ağ və ya sarı maye pakdır, yoxsa nəcasət? Bu ifrazat ara vermədən gələrsə dəstəmazı pozurmu? Bəs fasilə ilə olarsa, hökmü necədir? Qeyd edim ki, bəzi qadınlar onu rütubət hesab edirlər.

**Cavab:** Araşdırmadan sonra mənə belə aydın olur ki, qadından ifraz olan maye sidik yolundan deyil, uşaqlıqdan gələrsə pak sayılır, lakin o pak olsa belə, dəstəmazı pozur. Çünki dəstəmazı pozan amillərin nəcasət olması şərt deyil. Necə ki, arxadan çıxan qaz nəcasət deyil, lakin dəstəmazı pozur. Buna əsasən, əgər dəstəmazlı qadından belə bir maye ifraz olarsa, bu, onun dəstəmazını pozur və onun yenidən dəstəmaz alması vacib olur. Əgər bu hal davamlı olarsa, dəstəmazı pozmur. Ancaq namazın vaxtı girdikdə dəstəmaz alır və həmin vaxt fərz və nafilə namazlarını qılır və Quran oxuyur. Qadın bu vaxt ona mübah olan şeylər-

dən istədiyini edə bilər. Elm əhli deyir ki, bu, sidiyini saxlaya bilməyən xəstələr kimidir. Elə buna görə də demək olar ki, qadından gələn bu cür maye pakdır, lakin dəstəmazı pozur. Davamlı olduqda isə pozmur. Ona görə də qadın namazın vaxtı girdikdə, təmiz yuyunub ifrazatın qarşısını almalı və bununla ibadətini yerinə yetirməlidir.

Lakin ifrazat arası kəsilərək, fasilə ilə olarsa, bu zaman qadın namazını bir qədər gecikdirib, ifrazatın dayandığı vaxtda qılmalıdır. Əgər namazın vaxtının çıxmasından qorxarsa, öncə dediyimiz kimi, təmiz yuyunub ifrazatın qarşısını almalı və bununla ibadətini yerinə yetirməlidir.

**Sual 36:** Əgər qadından arası kəsilmədən maye ifraz olarsa həmin qadın dəstəmaz alıb fərz namazını qıldıqdan sonra digər fərz namazına qədər həmin dəstəmazla nafilə namazları qılıb, Quran oxuya bilərmi?

**Cavab:** Bəli, namazın vaxtı girdikdən sonra aldığı dəstəmazla ondan sonrakı namazın vaxtına qədər fərz və nafilə ibadətlər edə bilər.

**Sual 37:** O cür halda olan qadın sübh namazının dəstəmazı ilə duha namazını da qıla bilərmi?

**Cavab:** Xeyr, qıla bilməz. Çünki duha namazının özünün ayrıca vaxtı var. Onun üçün ayrıca

dəstəmaz alınmalıdır. Bu, istihazə halı kimidir. Peyğəmbər ﷺ istihazə olan qadına hər namaz üçün dəstəmaz almağı əmr etmişdir.

**Sual 38:** O cür halda olan qadın gecənin yarısı olduqda işa namazının dəstəmazı ilə gecə namazını qıla bilərmi?

**Cavab:** Bu məsələdə ixtilaf var. Lakin düzgün rəy odur ki, yenidən dəstəmaz almalıdır.

**Sual 39:** İşa namazının vaxtı nə zaman bitir və bunu necə bilmək olar?

**Cavab:** İşa namazının vaxtı gecə yarısı bitir. Bunu günəşin batması ilə sübhün girməsi arasındakı vaxtı yarı bölməklə bilmək olur. Gecənin ilk yarısında işa namazının vaxtı bitir. İkinci yarısı isə işanın vaxtından deyil, lakin işa ilə sübhün arasındakı bərzəx vaxtı hesab edilir.

**Sual 40:** Əgər qadından fasilə ilə maye ifraz olarsa və dəstəmazı bitirib namaza başlamaq istədiyi vaxt təkrar maye gələrsə, qadın nə etməlidir?

**Cavab:** Əgər maye ifrazı fasilə ilə olarsa, qadın ifrazatın dayandığı vaxtı gözləməlidir. Lakin bəlli bir vaxtı olmazsa, o zaman namazın vaxtı girdikdən sonra dəstəmaz alıb namaz qılır, bununla da üzərinə heç bir şey vacib olmur.

**Sual 41:** Həmin ifrazat paltara və ya bədənə dəyərsə, nə etmək lazımdır?

**Cavab:** Əgər gələn maye təmiz, pak olarsa heç bir şey gərək deyil, lakin sidik yolundan gələrsə yuyunub-təmizlənməsi vacibdir. (Buna oxşar suala otuz beşinci sualın cavabında geniş izahat verilib).

**Sual 42:** Bu ifrazata görə dəstəmaz alarkən dəstəmaz yerlərini yumaqla kifayətlənmək olarmı?

**Cavab:** Bəli, bir şərtlə ki, həmin ifrazat sidik yolundan deyil, uşaqlıqdan gəlsin. Bu halda dəstəmaz yerlərini yumaqla kifayətlənmək olar.

**Sual 43:** Səhabə qadınlar dini məsələləri soruşmağa həris idilər. Bəs səbəb nədir ki, qadından gələn bu cür mayenin dəstəmazı pozub-pozmamağına dair Peyğəmbərdən ﷺ heç bir hədis rəvayət olunmayıb?

**Cavab:** Çünki bu, bu cür maye hər bir qadından gəlmir.

**Sual 44:** Əgər qadın elmsizlik ucbatından dəstəmaz almayıbsa, bunun hökmü nədir?

**Cavab:** O qadının Allaha tövbə etməsi və bu haqda elm əhlinə müraciət etməsi vacibdir.

**Sual 45:** Bəzi insanlar sizin, bu məsələdə dəstəmazın vacib olmadığını dediyinizi söyləyirlər?

**Cavab:** Bu, doğru deyil, ola bilsin ki, sözümü (otuz beşinci sualın cavabında "o, pakdır, dəstəmazı pozmur" deməyimi) düzgün anlamayıblar.

**Sual 46:** Heyzdən bir və ya bir neçə gün əvvəl bulanıq rəngdə və ya qara, qəhvəyi rəngdə nazik ip kimi ifraz olan mayenin hökmü nədir? Bu, heyzdən sonra olarsa, nə etmək lazımdır?

**Cavab:** Əgər bu hallar heyzin başlanğıcında olarsa, heyzdən sayılır və bu adətən heyzdən əvvəl olan ağrı və sancı əlamətləri ilə bilinir. Lakin heyzdən sonra gələn bulanıq mayeyə görə, qadın tam təmizlənməsini gözləməlidir. Çünki o, heyzin arxasınca gəldiyinə görə heyzdən sayılır. Aişə O qadınlara (heyzdən sonra gələn) ağ mayeni görənə qədər tələsməməyi tövsiyə edərdi. Allah daha yaxşı bilir.

## Həcc və ümrə zamanı heyzin bəzi hökmləri.

**Sual 47:** Heyzli qadın ihram namazını necə qılmalıdır və o, gizlində Quran oxuya bilərmi?

**Cavab:** Birincisi; Bilmək lazımdır ki, ihram üçün xüsusi namaz yoxdur. Çünki Peyğəmbər ﷺ nə sözü, nə əməli, nə də təsdiqləməsi ilə ümmətinə ihram üçün xüsusi bir namaz buyurmamışdır.

İkincisi; İhramdan əvvəl heyz olan qadının heyzli halda ihrama girməsi mümkündür. Peyğəmbər ﷺ

Əbu Bəkrin həyat yoldaşı Əsma bint Umeysə N zül-Hüleyfədə[1] nifas olarkən təmizlənib yuyunduqdan sonra ihrama girməyi əmr etmişdir.[2] Heyzli qadın da elə bu cür edərək, ihrama girir və təmizlənənə qədər ihramda qalır. Təmizləndikdən sonra təvaf və səy ibadətlərini yerinə yetirir.

Heyzli qadının Quran oxumasına gəldikdə isə, bu, ehtiyac və ya məsləhət olan vaxt caizdir. Lakin ehtiyac yoxdursa, sadəcə, ibadət və Allaha yaxınlaşmaq məqsədi ilə Quran oxumaq istəyirsə, yaxşı olar ki, oxumasın.

**Sual 48:** Bir qadın həccə gedərkən səfər zamanı beş gün heyz olub. Miqata[3] yetişərkən yuyunub ihrama girib, lakin heyzi tam qurtarmayıb. Məkkəyə yetişdikdə harama daxil olmayıb, həcc və ümrə əməllərindən bir şey etməyib. İki gün Minada qalıb. Təmizləndikdən sonra qüsl alıb, ümrənin bütün əmməllərini yerinə yetirib. İfadə[4] təvafı edən zaman yenidən qan ifraz olub. Lakin utandığından vəlisinə deməyib, beləliklə, həcci başa çatdı-

---

[1] Mədinə şəhərinin on kilometrliyində yerləşən yer.

[2] Muslim, 2137.

[3] Həcc və ya ümrə ziyarətini yerinə yetirmək üçün niyyət edilən yer.

[4] İfada – bayram günü yerinə yetirilən, həccin rüknü sayılan təvafdır.

rıb. Ölkəsinə dönərkən vəlisinə xəbər bu barədə xəbər verib. Bunun hökmü necədir?

**Cavab:** Qadın ifadə təvafı zamanı gələn qanın heyz qanı olmasına əmin olarsa onun təvafı düzgün sayılmır. Yenidən ifadə təvafını etmək üçün Məkkəyə dönməsi lazımdır. Bunun üçün miqata gəlib ümrə niyyəti ilə ehrama girməli, təvaf və səy edib saçından qısaltmalı, sonra isə ifadə təvafını yerinə yetirməlidir. Lakin ifraz olan qan heyz qanı yox, sıxıntı və əziyyət səbəbindən gələn təbii qan olarsa, təvafı düzgün sayılır. Bu, təvaf üçün təharəti şərt görməyənlərin rəyidir. Əgər qadının geri dönməsi ölkəsinin uzaq olması və başqa çətinliklər üzündən mümkün olmazsa, həcci düzgün sayılır. Çünki bundan artıq bir şey bacarmır.

**Sual 49:** Qadın məhrəmi ilə ümrə ziyarətinə gedərkən, Məkkəyə yetişdikdə heyz olub. Məhrəminin isə təcili olaraq geri dönməsi lazım olub. Başqa bir məhrəm də yoxdur. Bu halda qadın nə etməlidir?

**Cavab:** Əgər ölkə daxilində olarsa məhrəmi ilə geri dönməli, lakin ihramda qalmalıdır. Çünki ölkə daxilində geri dönməsinə pasport və viza çətinliyi yoxdur. Lakin əcnəbi şəxs olarsa, geri dönməsi çətin olduğuna görə, təmizlənib, qan ifrazının qar-

şısını alır, təvaf və səy edib, saçını qısaldaraq ibadətini bitirir. Bu zəruri hal sayılır. Zəruri hal isə qadağaların icazəli olmasına imkan verir.

**Sual 50:** Həcc günlərində heyz olan qadının həcci düzgün sayılırmı?

**Cavab:** Qadının nə vaxt heyz olduğunu bilmədən buna cavab vermək mümkün deyil. Çünki heyz həccin bəzi əməllərinə mane olur, bəzilərinə isə olmur. Məsələn, təvafa mane olur, qalan əməllərə isə mane olmur.

**Sual 51:** Qadın soruşur: "Ötən il həcc ziyarəti etdim. Üzrlü səbəbdən ifadə və vida təvafından başqa, həccin bütün əməllərini yerinə yetirdim. Sonra Mədinəyə öz evimə gəldim ki, nə vaxtsa dönüb ifadə və vida təvafını yerinə yetirərəm. Elmsizliyim ucbatından ihramdan çıxdım və ihram zamanı haram olan şeyləri etdim. Geri dönüb təvaf etməyi soruşduqda mənə dedilər ki, sənin təvaf etmən düzgün sayılmır, artıq həccin batildir. Gələn il yenidən həcc edib bir inək və ya dəvə kəsməyin vacibdir". Bu, doğrudurmu və ya bunun başqa yolu varmı? Mənim həccim batildirmi, yenidən etməyimə gərək varmı? Vacib olanı mənə deyin, Allah sizə kömək olsun.

**Cavab:** Bu elmsiz fitva vermək nəticəsində baş verən bəlalardandır. Sənə Məkkəyə gedib yalnız

ifadə təvafını yerinə yetirmək vacibdir. Məkkədən çıxarkən heyz olduğun üçün isə vida təvafı sənə vacib deyil. İbn Abbasın N rəvayət etdiyi hədisdə deyilir: **"(Həcc ziyarətində olan) insanlara son (ayin) olaraq Kəbəni təvaf etmək əmr edilmişdir. Yalnız heyzli qadınlar üçün bu (hökm) yüngülləşdirilmişdir."**[1]

Aişədən O rəvayət edilir ki, o, Peyğəmbərə ﷺ: **"Ya Rəsulullah, Safiyyə bint Huyey heyz oldu,"**– deyə xəbər verdi. Peyğəmbər ﷺ: **"O, bizi ləngidə bilər. Məgər o, sizinlə bərabər təvaf etmədimi?"**– dedi. Onlar: **"Bəli"**– deyə cavab verdilər. Peyğəmbər ﷺ: **"Elə isə** *(vida təvafını etmədən Məkkədən)* **çıx!"**– deyə buyurdu.[2] Bu dəlildir ki, vida təvafı heyz olan qadına vacib deyil. İfadə təvafı isə təmizləndikdən sonra mütləq edilməlidir. Elmsizlik ucbatından ihramda olarkən qadağan olan şeyləri etməyinin isə, heç bir zərəri yoxdur. Çünki insanın, ihramda olan vaxt qadağan olan əməlləri bilmədən etməsi günah deyil. Uca Allah buyurur: **"...Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma!..."**[3] Peyğəmbər ﷺ demişdir: **"Mömin-**

---

[1] əl-Buxari, 1755.
[2] əl-Buxari, 328.
[3] "əl-Bəqərə" surəsi, 286.

**lər bu ayəni oxuduqda, hər dəfə: «Ey Rəbbimiz!»- deyə dua edərək Allaha müraciət etdikdə, O, «Bəli, istəyinizi yerinə yetirdim!»- deyə cavab verir."**[1] Uca Allah başqa bir ayədə belə deyir: **"Səhvən etdiyiniz əməllərdə sizə heç bir günah yoxdur. Lakin qəlbinizin qəsdlə etdiyi işlərdən ötrü** ***sizə günah var.*** **Allah Bağışlayandır, Rəhmlidir."**[2] Buna əsasən demək olar ki, ihramda olan şəxsin Allahın qadağan etdiyi əməlləri səhvən və ya unudaraq etməsində günah yoxdur. Lakin üzrlü səbəbdən tərk etdiyi amili üzr aradan qalxdıqdan sonra yerinə yetirməlidir.

**Sual 52:** Bir qadın həcc ayının səkkizində (tərviyə günü) nifas olub və həccin təvaf və səydən başqa bütün ərkanlarını yerinə yetirib. Həmin qadın on gündən sonra nifasdan təmizlənməsini ehtimal edərsə, qüsl alıb qalan rükunları yerinə yetirə bilərmi?

**Cavab:** Qadın tam təmizlənməsinə əmin olmayınca qüsl alıb, təvaf edə bilməz. Çünki sualdan belə başa düşülür ki, nifasdan təmizlənməsinə tam əmin deyil. Nə vaxt tam təmizlənərsə, o zaman qüsl alıb, təvaf və səyi yerinə yetirə bilər. Səyi tə-

---

[1] Muslim, 126.

[2] "əl-Əhzab" surəsi, 5.

vafdan əvvəl etməsində heç bir problem yoxdur. Çünki Peyğəmbər ﷺ həccdə təvafdan öncə səy etmək haqda soruşulduqda: **"Heç nə olmaz."**- deyə cavab vermişdir.

**Sual 53:** Bir qadın heyzli ikən Seyl adlı məntəqədən həcc üçün ihrama girib, Məkkəyə yetişdikdən sonra ehtiyacı olduğu bir iş üçün Ciddə şəhərinə gedib və orada təmizlənib, qüsl alıb, saçını darayıb, sonra isə Məkkəyə gələrək həccini tamamlayıb. Onun həcci düzgündürmü, başqa bir şey etməsi lazımdırmı?

**Cavab:** Həcci düzgündür, əlavə bir şey etməsi lazım deyil.

**Sual 54:** Qadın deyir: "Mən ümrə ziyarətinə gedərkən miqatı keçdim və heyz olduğum üçün miqatdan ihrama girmədim. Təmizlənənə qədər Məkkədə gözlədim, sonra isə Məkkədən ihrama girdim. Mənim əməlim düzgündürmü və yaxud nə etməliyəm?"

**Cavab:** Bu əməl düzgün deyil. Ümrə etmək istəyən kəsin heyzli olsa belə miqatı ihramsız keçməsi qadağandır. Qadının heyzli olaraq ihrama girməsi mümkündür və bu əməl səhih sayılır. Buna dəlil Peyğəmbərin ﷺ Əbu Bəkrin həyat yoldaşı Əsma bint Umeysə N zül-Hüleyfədə nifas olarkən

təmizlənib yuyunduqdan sonra qan ifrazının qarşısını bir şeylə alıb ehrama girməyi əmr etməsidir.[1] Heyz qanı da nifas qanı kimidir. Buna görə də heyz olan qadın ümrə və ya həcc etmək istərsə miqatdan keçərkən yuyunub-təmizlənməli və qan ifrazının qarşısını alıb ehrama girməlidir. Qan ifrazının qarşısını almaq dedikdə, qadının, fərcini əski və ya buna bənzər şeylərlə bərk-bərk bağlaması nəzərdə tutulur. Lakin ihrama girib Məkkəyə yetişdikdə, heyzdən qurtarıb, qüsl almadan Kəbəyə gedib təvaf etməsi qadağandır. Buna görə Aişə O ümrə zamanı heyz olarkən Peyğəmbər ﷺ ona demişdir: **"Həcdə edilən bütün əməlləri et, təvafı isə təmizlənməmiş etmə."**[2] Buxarinin "Səhih" əsərində Aişənin O təmizləndikdən sonra təvaf və səy etməsi də qeyd olunur. Bu dəlildir ki, qadın ümrə və ya həcc üçün ihrama girərsə və təvafa başlamazdan əvvəl heyz olarsa, təmizlənib qüsl almayınca təvaf və səyi etmir. Lakin təvafı qurtardıqdan sonra Səfa və Mərva arasında səy edərkən heyz olarsa, axıra kimi səy edib, saçının ucundan kəsdirir və ümrəsini başa çatdırır. Çünki səy etmək üçün təharət vacib deyil.

[1] Muslim, 2137.
[2] əl-Buxari, 1650.

**Sual 55:** Bir nəfər soruşur: "Həyat yoldaşımla birlikdə Yanbu[1] şəhərindən ümrəyə getdik. Ciddə şəhərinə yetişdikdə yoldaşım heyz oldu. Mən ümrəni tək başa çatdırdım. Yoldaşım nə etməlidir?"

**Cavab:** Yoldaşın ihramda qalıb təmizlənməsini gözləməli və təmizləndikdən sonra ümrəsini yerinə yetirməlidir. Çünki, peyğəmbərə ﷺ Safiyyə bint Huyeynin heyz olması xəbəri çatdıqda belə demişdir: **"O, bizi ləngidə bilər. Məgər o, sizinlə bərabər təvaf etmədimi?"** Onlar: **"Bəli, o artıq ifadə təvafını etmişdir."**– deyə cavab verdilər. Peyğəmbər ﷺ: **"Elə isə** *(vida təvafını etmədən Məkkədən)* **çıx!"**– deyə buyurdu.[2] Peyğəmbərin ﷺ **"O, bizi ləngidə bilər."**- deməsi dəlildir ki, qadın ifadə təvafından əvvəl heyz olarsa heyzdən təmizlənənə qədər gözləyib, sonra təvaf etməlidir. Ümrə təvafı da ifadə təvafı kimidir. Çünki, ümrə təvafı ümrənin rüknlərindəndir. Odur ki, ümrə ziyarəti edən qadın təvafdan əvvəl heyz olarsa təmizlənənə qədər gözləməli, sonra təvaf etməlidir.

**Sual 56:** Səfa və Mərva haramdan sayılırmı və heyzli qadın orada dura bilərmi? Səfa və Mərva-

---

[1] Səudiyyə Ərəbistanında şəhər.
[2] əl-Buxari, 328.

dan Məscidülhərama daxil olan şəxsin məscid haqqı qılması vacibdirmi?

**Cavab:** Çox güman ki, Səfa və Mərva Məscidülhəramdan sayılmır. Elə buna görə də onların arasında onları bir-birindən ayıran hasar var. Bu da insanların xeyri üçündür. Əgər Səfa və Mərvanı Məscidülhəramın ərazisinə daxil etsəydilər,[1] təvafdan sonra heyz olan qadının səy etməsi qadağan olardı. Buna əsasən mən fitva verirəm ki, qadın təvafdan sonra və səydən əvvəl heyz olarsa, səy edə bilər. Çünki səy edilən yer Məscidülhəramdan sayılmır. Məscid haqqının qılınmasına gəldikdə isə, əgər insan təvafdan sonra səy edib yenidən məscidə qayıdarsa, məscid haqqı qılsın, qılmasa da bir şey olmaz. Lakin orada qılınan namazın fəzilətli olduğuna görə fürsətdən istifadə edib iki rükət namaz qılsa daha yaxşı olar.

**Sual 57:** Qadın soruşur ki, həcc vaxtı heyz oldum. Utandığımdan heç kimə deyə bilmədim. Məscidülhərama girib, namaz qılıb, təvaf və səy etdim. Qeyd edim ki, nifasdan sonra heyz oldum. İndi mən nə etməliyəm?

**Cavab:** Qadının heyz və ya nifas olarkən istər Məkkədə, istər öz ölkəsində, istərsə də başqa bir

[1] Yəni, arada olan hasarı götürsəydilər.

yerdə namaz qılması düzgün deyildir. Peyğəmbər ﷺ demişdir: **"Məgər qadın heyz olanda namazı və orucu tərk etmirmi."**[1] İslam alimləri ittifaq etmişlər ki, heyz olan qadına namaz və oruc qadağandır. Bunu edən qadının tövbə etməsi və Allahdan bağışlanma diləməsi vacibdir. Etdiyi təvaf düzgün sayılmır. Səy isə düzgündür. Çünki düzgün rəy odur ki, həcdə səyi təvafdan əvvəl etmək olar. Buna görə də həmin qadına ifadə təvafını yenidən etmək vacibdir. Çünki ifadə təvafı həccin rükunlarındandır. Bunu etmədən ihramdan çıxmış sayılmır. İfadə fəvafını etməyən qadına, bu təvafı edənə qədər, subaydırsa, nikah etməsi, evlidirsə, ərinin onunla yaxılıq etməsi haram sayılır.

**Sual 58:** Qadın Ərafat günü heyz olarsa, nə etməlidir?

**Cavab:** Ərafat günü qadın heyz olarsa, insanlarla bərabər təvafdan başqa həccin bütün əməllərini yerinə yetirir. Təvafı isə təmizləndikdən sonra yerinə yetirməlidir.

**Sual 59:** Əgər qadın böyük sütuna[2] daş atdıqdan sonra, ifadə təvafından əvvəl heyz olarsa nə

---

[1] əl-Buxari, 1951.

[2] Burada şeytana daş atılan sütunlardan ən böyüyü qəsd edilir. Buna da ərəbcə "cəmərətul-əqəbə" deyilir.

etməlidir? Qeyd edək ki, onlar dəstə ilə gəliblər və dəstədən geri qalmaları mümkün deyil. Ölkəsinə getdikdə isə bir daha Məkkəyə gəlməsi qeyri-mümkündür.

**Cavab:** Əgər geri dönmələri mümkün deyilsə, zərurət olduğuna görə yuyunub təmizlənməli və qan ifrazının qarşısını bir şeylə alıb təvaf edərək həccini bitirməlidir.

**Sual 60:** Qadın qırx gündən tez nifas qanından təmizlənərsə, həcci düzgün sayılırmı? Yaxud tam təmizlənməzsə, nə etməlidir? Qeyd edək ki, həmin qadın artıq həcc üçün niyyət etmişdir.

**Cavab:** Qadın qırx gündən tez nifasdan təmizlənərsə, qüsl alıb namaz qılır və təmiz halda olan qadınlar kimi hər bir ibadəti, o cümlədən təvafı yerinə yetirə bilər. Çünki nifasın az müddətinin müəyyən bir həddi yoxdur. Əgər qadın nifasdan təmizlənmiş olmazsa, həcci düzgündür, lakin təvafı nifasdan tam təmizləndikdən sonra etməlidir. Peyğəmbər ﷺ heyzli qadına təvaf etməyi qadağan etmişdir. Nifas da heyz kimi eyni hökmə bərabərdir.

## Tərcüməçidən

Əvvəldə və sonda həmd Allaha məxsusdur. Bu kitabçada olan sualların çox əhəmiyyətli olmasını fikirləşərək onu tərcümə etmək qərarına gəldik. Necə də əhəmiyyətli olmasın?! Axı Uca Allah belə buyurur: **"Səndən heyz barəsində soruşurlar. De: Bu, əziyyətverici bir haldır. Heyz vaxtı qadınlarla *yaxınlıq etməkdən* uzaq olun və pak olmayınca onlarla yaxınlıq etməyin. Onlar təmizləndikdən sonra isə Allahın sizə buyurduğu yerdən onlara yaxınlaşın. Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da."** [1] Ayədən məlum olur ki, bu məsələ daima soruşulur və bununla ibadətlər düzgün və ya səhv olur.

Uca Allaha həmd olsun ki, bu kiçik kitabçanın tərcüməsində mənə kömək oldu. Həmçinin tərcümədə mənə köməklik edən şəxslərə öz təşəkkürümü bildirirəm. Kitabçanın tərcüməsində məqsədimiz, müsəlman ana və bacılarımızın ibadətlərinin elmi əsaslarla olması və soruşa bilmədikləri bəzi suallara burada cavab tapmalarıdır. Allahdan diləyimiz budur ki, bizim əməllərimizi saleh və yalnız ixlaslı olan əməllərdən etsin! Amin!

---

[1] "əl-Bəqərə" surəsi, 222.